İyul 2016

# PwC Azerbaijan Times

## 20 saylı Buraxılış

**Buraxılışın əsas xəbərləri:**

- **Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında Prezident Fərmanı**
- **Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi haqqında Prezident Fərmanı**
- **Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi haqqında Referendum Aktının Layihəsi**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında Prezident Fərmanı*

Maliyyə Sabitliyi Şurasının yaradılmasında məqsəd əlverişli biznes və investisiya mühitinin yaradılması, sahibkarlara öz hüquqlarını müdafiə etmək imkanlarının yaradılması, bank sisteminin etibarlılığın artırılması və maliyyə mənbələrinə çıxış imkanlarının sadələşdirilməsidir. Şuranın əsas məqsədi makroiqtisadi və maliyyə sabitliyinin davamlı təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsidir.

### *Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi haqqında Prezident Fərmanı*

Fərmana əsasən Nazirlər Kabinetinə tapşırılmışdır ki, Əmlak Məsələləri Dövlət Komitəsinin və aidiyyəti digər dövlət orqanlarının təklifləri əsasında dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı müəyyənləşdirilsin və həmin müəssisələrin restrukturizasiyası həyata keçirilsin, həmçinin onların tabeliyində olan qeyri-profil müəssisə və obyektlərin çıxarılaraq özəlləşdirilməsi üçün tədbirlər görülsün.

Əlavə olaraq, Nazirlər Kabinetinə tapşırılmışdır ki, özəlləşdiriləcək dövlət müəssisələrinin sağlamlaşdırılması və onların borclarının tənzimlənməsi barədə təkliflər Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

### *Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi haqqında Referendum Aktının Layihəsi*

Referendum Aktı Layihəsi cinayətkar üsullardan istifadə edərək qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklərin qadağan edilməsini təklif edir.

Digər bir dəyişiklik Milli Məclisə seçilmək üçün tələb olunan minimal yaş həddinin 25-dən 18-ə azaldılmasını təklif edir. Həmçinin, təklif olunur ki, prezidentlik müddəti 5 ildən 7 ilə dəyişdirilsin.

Hal-hazırda Konstitusiyanın tələblərinə uyğun olaraq prezidentliyə namizədliyin irəli sürülməsi üçün minimal yaş həddi

35 olaraq müəyyən olunur.

Lakin, təklif olunan dəyişikliyə əsasən minimal yaş həddi tələbi ləğv edilmişdir və Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı Prezident seçilə bilər.

Konstitusiyaya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri vəzifələrinin əlavə olunması təklif edilir. Referendum Aktı Layihəsinə əsasən vitse-prezidentlər Prezident tərəfindən təyin edilir və onlar səlahiyyət müddətləri ərzində toxunulmazlıq hüququna malikdirlər. Toxunulmazlığa yalnız Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Prezidenti tərəfindən xitam verilə bilər. Birinci vitse-prezidentin öz səlahiyyətlərini icra edə bilmədiyi halda, onun səlahiyyətləri Baş nazir tərəfindən icra ediləcəkdir.